# İQTİSADİ SİYASƏTİ HƏYATA KEÇİRƏN MİLLİ QURUMLAR

**Elşən Bağırzadə**

*iqtisad üzrə fəlsəfə doktoru*

**Bakı - 2015**

# GİRİŞ əvəzi

**Bizi bürokratiyadan qurtaran yeganə amil onun effektiv işləməməsidir.**

***Eugene Mc Carthy***

# MALİYYƏ NAZİRLİYİ

- Dünya praktikasında Maliyyə Nazirliyinin təşkilatlanmasl ilə bağlı 2 əsas yanaşma mövcuddur:
  - ***Anglo-Amerikan təcrübəsi***: Xəzinə Nazirliyi maliyyəni də əhatə edir.
  - ***Qeyri-Anqlo-Amerikan təcrübəsi***: Maliyyə Nazirliyi xəzinəni də əhatə edir.
- Azərbaycan ikinci yanaşmaya üstünlük vermişdir.
- Bir çox ölkələrdə vergilər və gömrük rüsumları Maliyyə Nazirlikləri tərəfindən toplanır. Ancaq Azərbaycanda bu funksiyanı ***Vergilər Nazirliyi*** və ***Dövlət Gömrük Komitəsi*** həyata keçirir.
- Azərbaycanda Maliyyə Nazirliyi ilk dəfə 1918-ci ildə yaradılmış və ***ilk Maliyyə Naziri Nəsibbəy Yusifbəyli*** olmuşdur.

# MALİYYƏ NAZİRLİYİ

- ***Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyət istiqamətləri:***
  - maliyyə, büdcə, vergi sahəsində dövlət siyasətini işləyib hazırlayır və həyata keçirilməsini aidiyyəti dövlət orqanlarının və digər təşkilatların iştirakı ilə təmin edir;
  - dövlət və icmal büdcələrin layihələrinin mövcud qanunvericiliyə uyğun olaraq hazırlanmasını təmin edir;
  - dövlət büdcəsinin icrasını təmin edir, dövlət büdcəsindən ayrılan vəsaitlərin və dövlət zəmanəti ilə alınan kreditlərin təyinatı üzrə xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təşkil edir;
  - sığorta fəaliyyəti sahəsində dövlət siyasətinin və sığorta bazarının peşəkar iştirakçılarının fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsini təmin edir;
  - dövlət əyar nəzarətinin və qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və dövriyyəsi sahələrində dövlət nəzarətini təşkil edir və həyata keçirilməsini təmin edir;
  - dövlət borcunun idarə edilməsini və dövlət zəmanətinin verilməsini təşkil edir, dövlət borclanma siyasətini işləyib hazırlayır və həyata keçirilməsini təmin edir;
  - hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində dövlət siyasətini işləyib hazırlayır və həyata keçirilməsi üzrə öz səlahiyyətləri daxilində tədbirlər görür;

# MALİYYƏ NAZİRLİYİ

- audit fəaliyyəti sahəsində dövlət siyasətini işləyib hazırlayır və həyata keçirilməsi ilə bağlı təkliflər verir;
- dövlət investisiya proqramlarının tərtib olunmasında, dövlət investisiya siyasətinin, dövlət proqramlarının inkişaf konsepsiyası və strategiyalarının hazırlanmasında və həyata keçirilməsində qanunvericiliklə müəyyən edilmiş qaydada iştirak edir;
- maliyyə bazarının inkişafı, iqtisadiyyata xarici və daxili kreditlərin cəlb edilməsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsini təmin edir;
- büdcə sistemi, vergi, dövlət xəzinədarlığı, dövlət maliyyə nəzarəti, sığorta fəaliyyətinə nəzarət, dövlət borcunun idarə edilməsi, qiymətli metallar və qiymətli daşlara nəzarət, audit, mühasibat uçotunun təşkili və aparılması sahəsində və digər məsələlər üzrə normativ hüquqi tənzimlənməni həyata keçirir;
- makroiqtisadi göstəricilərin proqnozlaşdırılması, iqtisadiyyatın dövlət tənzimlənməsi, onun inkişaf istiqamətləri barədə təkliflər hazırlayır;
- Nazirliyin fəaliyyət istiqamətləri üzrə sahəvi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirir.

# MALİYYƏ NAZİRLİYİ

- Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturu:
  - Nazirliyin aparatı;
  - Dövlət Xəzinədarlığı Agentliyi;
  - Dövlət Borcunun İdarə Edilməsi Agentliyi;
  - Dövlət Maliyyə Nəzarəti Xidməti;
  - Dövlət Sığorta Nəzarəti Xidməti;
  - Qiymətli Metallara və Daşlara Nəzarət Dövlət Xidməti;
  - Nazirliyin yerli bölmələri;
  - Tabeliyində olan digər qurumlar:
    - Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi;
    - AR-nin Məlumat-Hesablama Mərkəzi;
    - "Maliyyə və uçot jurnalı redaksiyası" MMC.

# MALİYYƏ NAZİRLİYİ

- ***Dövlət xəzinəsi***:
  - Dövlətin nağd pul axınını tənzimləyir.
  - Dövlətin kassası, onun ödəmələrini həyata keçirən xəzinədarıdır.
  - Dövlətin bütün gəlirləri, o cümlədən də daxili və xarici borclanmasından əldə edilən bütün fondlar dövlət xəzinəsinin kassalarına daxil olur və ya xəzinənin banklardakı hesablarında saxlanılır.

# MALİYYƏ NAZİRLİYİ

- Keçmişdə dövlətlərin və ya dövlət xəzinəsinin həqiqi kassaları vardı və dövləti pulu, müxtəlif dəyərli metallar bu kassalarda saxlanılırdı.
- Dövlətin kassası müasir dövrdə simvolik məna daşıyır. Hazırda dövlətin pulu Mərkəzi Bank və ya banklarda, qızıl kimi qiymətli metalları Mərkəzi Bankın kassalarında qorunur.
- Dövlətin borcu, alacağı, ödənişə çevrilə bilən hər cür öhdəliyi xəzinə tərəfindən nəzarətdə saxlanılır və idarə olunur.
- Xəzinə dövlətin pul axınlarını idarə edir, başqa sözlə dövlətin gəlir və xərclərinin zaman və məkan etibarilə tarazlaşdırılmasını təmin edir.

# MALİYYƏ NAZİRLİYİ

- Həqiqətən də dövlət gəlir və xərclərinin tarazlaşdırılması dedikdə, dövlət gəlirlərinin toplanması, dövlət xərclərinin icra edilməsi, gəlir-xərc tarazlığının pozulması halında borclanmaya gedilməsi, dövlət borclarının əsas hissəsi və faizlərinin ödənilməsi, ödəyə bilmədiyi hallarda zəruri tədbirlərin görülməsi kimi çox müxtəlif və əhatəli əməliyyatlar nəzərdə tutulur.
- Dünyada dövlət xəzinəsinin təşkilatlanmasına 2 əsas yanaşma var:
  - Anglo-sakson yanaşması: Xəzinə müstəqil bir struktur kimi yaradılır. Məs. Xəzinə Nazirliyi kimi.
  - Qitə Avropası yanaşması: Maliyyə və İqtisadiyyat Nazirliyinin bir strukturu kimi yaradılır. Məs. Azərbaycanda Dövlət Xəzinədarlığı Agentliyi kimi.

# MALİYYƏ NAZİRLİYİ

- Dövlətin topladığı gəlirlərin və həyata keçirdiyi xərclərin nağd formada tarazlığına ***xəzinənin nağd tarazlığı*** deyilir.lığına görə
- Dövlət bölməsinin maliyyələşdirilməsi xəzinənin nağd tarazlığına görə müəyyən edilir.
- Çünkü praktikada xəzinənin nağd tarazlığı ilə büdcə tarazlığı arasında daim fərq yaranır.
- Dövlət bölməsinin maliyyələşməsindən danışdıqda əsas məsələ cibdəki pul olduğu üçün nağd tarazlığı əhəmiyyətlidir.
- Xəzinənin pul axını metodu iki əsas məqsədə xidmət edir:
  - Dövlət gəlir və xərclərinin zaman baxımından uyğunlaşdırılması: Məsələn, yanvar ayı gəlirlərin aşağı, xərclərin isə yüksək olduğu aydır. Bu ayda xəzinə borclanır, gəlirin yüksək, xərcin aşağı olduğu aylarda isə bu borcları ödəyir.
  - Dövlət gəlir və xərclərinin məkan baxımından uyğunlaşdırılması: Məs. Müxtəlif regionlarda toplanan dövlət gəlirlərinin, ilk növbədə o regionun xərclərinin ödənilməsində istifadə edilməsi, qalan hissənin isə digər regionların ehtiyacları üçün transfert edilməsi.

# VERGİLƏR NAZİRLİYİ

- Vergi xidməti 1990-cı ilin iyul ayında ***Maliyyə Nazirliyinin tərkibində*** yaradılmışdır.
- 1991-ci ilin okryabr ayında Maliyyə Nazirliyinin tərkibindən çıxarılmış və ***Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi*** adı altında müstəqil dövlət orqanı kimi fəaliyyətə başlamışdır.
- 11 fevral 2000-ci ildə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilərək ***Vergilər Nazirliyi*** yaradılmışdır.

# VERGİLƏR NAZİRLİYİ

- ***Vergilər Nazirliyi*** Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.
- ***Vergilər Nazirliyinin strukturu***:
  - Vergilər Nazirliyi Aparatı;
  - Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti;
  - Xüsusi Rejimli Vergi Xidməti Departamenti;
  - Naxçıvan MR Vergilər Nazirliyi;
  - Ərazi Vergilər İdarələri və Departamentləri;
  - Rayon Vergilər Şöbələri.

# DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

- 1918-1920-ci illərdə gömrük xidməti ***Azərbaycan Demokratik Respublikası***nın Maliyyə Nazirliyinin tabeçiliyində fəaliyyət göstərmişdir.
- 1992-ci ilin yanvar ayında ***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi*** yaradıldı.
- ***Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi*** fəaliyyət istiqamətlərinə uyğun olaraq, gömrük işi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır.

# DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

- ***Dövlət Gömrük Komitəsinin əsas funksiyaları:***
  - Gömrük işini təşkil etmək və onu təkmilləşdirmək;
  - Gömrük siyasətini həyata keçirmək;
  - Ölkənin iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;
  - Ölkənin gömrük ərazisinin vahidliyini təmin etmək;
  - Ölkədə qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil etmək;
  - Gömrük işinə dair və digər qanunvericiliyə əməl olunmasını təmin etmək.

# DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

- ***Dövlət Gömrük Komitəsinin strukturu:***
  - Komitənin aparatı;
  - Ərazi Gömrük İdarələri;
    - Bakı Baş Gömrük İdarəsi.
    - Sumqayıt Baş Gömrük İdarəsi.
    - Digər ərazi gömrük idarələri.
  - İxtisaslaşdırılmış gömrük idarələri:
    - Hava Nəqliyyatında Baş Gömrük İdarəsi.
    - Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsi;
    - Enerji Gömrük İdarəsi;
    - Aksiz Baş Gömrük İdarəsi;
    - Avtonəqliyyat Baş Gömrük İdarəsi;
  - Gömrük postları;
  - Digər qurumlar.

# DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

- Gömrük tariflərinin formalaşdırılması və tətbiqi iqtisadi siyasət baxımından mühüm əhəmiyyət daşıyır və tariflər iqtisadi siyasətin çox təsirli vasitələrindən biridir.
- Müasir dövrdə tariflərin formalaşmasında ***Dünya Ticarət Təşkilatı*** və ***Avropa İttifaqı*** kimi regional iqtisadi inteqrasiyaların ciddi rolu olsa da, ***qeyri-tarif vasitələri***nin formalaşması və tətbiqində kömrük xidmətlərinin rolu hələ də çox böyükdür.

# MƏRKƏZİ BANK

- Mərkəzi Bank monetar orqandır.
- Pulun (banknot) emissiyası və dövriyyəsinin təmin edilməsi Mərkəzi Bankların əsas vəzifəsidir.
- Müasir dövrdə mərkəzi banklar, keçmişdə onlara verilən vəzifələrdən fərqli olaraq, yalnız milli pulun stabilliyindən məsuldur, yəni pul siyasətinin reallaşdırılması vəzifəsini həyata keçirən qurumlara çevrilmişlər.
- Bu baxımdan Mərkəzi Bankların vəzifələri pul, faiz və kurs siyasətlərini həyata keçirərək qiymətlərin stabiliyi daxilində iqtisadi tarazlıqların formalaşmasına xidmət etməkdir.

# MƏRKƏZİ BANK

- Dünyada qurulan ilk monetar orqan Niderland Mərkəzi Bankıdır.
- Ancaq əsl mərkəzi bankçılığı ***İngiltərə Mərkəzi Bankı*** (Bank of England) ilə başlamışdır.
- İngiltərə Mərkəzi Bankının qurulma məqsədi ilk öncə xəzinənin pul ehtiyaclarını ödəmək idi.
- İngiltərə Mərkəzi Bankının qurulmasından öncə, banknot kimi qızıllarını girov qoyanlara qızıl tacirlərinin (***goldsmiths***) verdiyi yazılı kağızlar istifadə edilməyə başlanmışdı.
- Bu kağızların dövriyyəsi ilə qarşılığı qızıl olan kağız pul (banknot) real olaraq meydana gəlmişdi. Bunlara "***goldsmith notes***" adı verilirdi.
- Getdikcə bu tacirlər bank kimi çalışmaya başladığında, bunları idarə edəcək və kağız pulu emissiya edəcək bir quruma ehtiyac yarandı. İngiltərə Mərkəzi Bankının yaranmasında bu mühüm bir amil olmuşdur.

# MƏRKƏZİ BANK

- Zaman keçdikcə kağız pulun yaratdığı imkanlar və böyük üstünlük, bütün ölkələrdə mərkəzi bankların və kağız pulun ortaya çıxmasına yol açmışdır.
- Uzun müddət kağız pulun qızıl qarşılığı olmuşdur.
- I Dünya Müharibəsi ilə birlikdə pulun qızıl qarşılığı ortadan qalxmağa və kağız pul isə yalnız dövlətin etibarını daşımağa başladı.
- Etibarı yüksək olmayan dövlətlər isə pullarını daha etibarlı dövlətlərin pullarına bağlayaraq etibar qazanmağa çalışdılar.
- Bir milli pulun digər milli pula bağlanmasına “peg” adı verilir.

# MƏRKƏZİ BANK

- Mərkəzi Bankın bazara buraxacağı pulun miqdarı həmişə mübahisə mövzusu olmuşdur.
- Bəzi iqtisadçılar iqtisadiyyatın real artımı qədər pul təklifinin artırılması zəruriliyini, bir başqa qrup iqtisadçı milli pulun xarici pul vahidləri qarşısında dəyərdən düşməsini əsas ölçü götürməyi, digərləri isə pul emissiyasının müəyyən bir qaydaya bağlanılmasını qeyd edirlər.

# MƏRKƏZİ BANK

- 30 sentyabr 1919-cu il tarixində ***Azərbaycan Dövlət Bankı*** adı ilə Mərkəzi Bank fəaliyyətə başlamışdır.
- 11 fevral 1991-ci il tarixində yenidən ***Azərbaycan Respublikasının Milli Bankı*** adı altında Mərkəzi Bank yaradılmışdır.
- 18 mart 2009–cu il tarixli Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar olaraq “Azərbaycan Respublikası Milli Bankı” “***Azərbaycan Respublikasının Mərkəzi Bankı” adlandırılmışdır.***

# MƏRKƏZİ BANK

- ***Azərbaycan Respublikası Mərkəzi Bankının məqsədləri:***
  - Səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi;
  - Bank və ödəniş sistemlərinin sabitliyi və inkişafının təmin edilməsi;
- ***Azərbaycan Respublikası Mərkəzi Bankının funksiyaları:***
  - dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;
  - nağd pul dövriyyəsini təşkil edir;
  - manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;
  - valyuta tənzimini və nəzarətini həyata keçirir;
  - sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarım saxlayır və idarə edir;
  - hesabat tədiyə balansım tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir;
  - bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir;
  - ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir;

# MƏRKƏZİ BANK

- ***Azərbaycan Respublikası Mərkəzi Bankının strukturu:***
  - ***İdarə Heyəti***: Mərkəzi Bank İdarə Heyəti tərəfindən idarə olunur. Tərkibi sədr, Mərkəzi Bankda daimi əsaslarla işləyən dörd üzv və iki kənar üzv olmaqla 7 üzvdən ibarətdir.
  - ***Mərkəzi aparat***.
  - ***Ərazi idarələri***:
    - Biləsuvar Regional Mərkəzi
    - Gəncə Regional Mərkəzi
    - Quba Regional Mərkəzi
    - Naxçıvan Muxtar Respublikası İdarəsi
    - Yevlax Ehtiyat Mərkəzi

# MƏRKƏZİ BANK

- ***Azərbaycan Respublikası Mərkəzi Bankının Pul Siyasəti və Maliyyə Sabitliyi Komitəsi:***
  - Pul və məzənnə siyasətinin işlənməsi və həyata keçirilməsi, habelə maliyyə sabitliyinin qorunması üzrə Mərkəzi Bankın İdarə Heyətinin yanında məşvərətçi orqandır.
  - Komitənin tərkibi İdarə Heyətinin sədri tərəfindən təsdiq olunur.
  - Komitənin pul və məzənnə siyasəti məsələlərinə dair iclasları həftədə bir dəfə, maliyyə sisteminin sabitliyi məsələlərinə dair iclasları isə ayda bir dəfə keçirilir.

# MƏRKƏZİ BANK

- Mərkəzi bankların qurulması müxtəlif ölkələrdə müxtəlifdir.
- ABŞ-da Mərkəzi Bank (***Fedreal Reserve System***) bankların payçısı olduğu tamamilə özəl qurumlardır.
- ***Avropa Mərkəzi Bankı*** və Avropadakı bir çox mərkəzi bank tamamilə dövlət qurumudur.
- Mərkəzi bankların təsis formasından asılı olmayaraq hamısı üçün ümumi olan aşağıdakı xüsusiyyətləri vardır:
  - Ali idarə edənləri hökumətlər və ya parlamentlər tərəfindən təyin edilir.
  - İl ərzində əldə etdikləri mənfəət bir sonrakı il üçün dövlət xəzinəsinə verilir. Çünkü mərkəzi bankların mənfəəti dövlətin ona verdiyi pul emissiya etmə inhisarından irəli gəlir.

# İQTİSADİYYAT VƏ SƏNAYE NAZİRLİYİ

- ***İqtisadiyyat və Sənaye Nazirliyi*** Azərbaycan Respublikasının iqtisadi siyasətini, iqtisadi və sosial proqnozlarını işləyib hazırlayan, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən sənayenin inkişafı, ölkə iqtisadiyyatında struktur və innovasiya, investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi, rəqabətin qorunması, inkişafı və təşviqi, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, daxili ticarət, xarici iqtisadi və ticarət əlaqələri, regionların sosial-iqtisadi inkişafı və mənzil-kommunal təsərrüfatı sahələrində (bundan sonra – müvafiq sahədə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.



İqtisadiyyat və Sənaye Nazirliyinin Vahid Sistemi
Nazirliyin strukturu
Nazirliyin Aparatı
ASİHMDX
Sahibkarlığa Kömək Milli Fondu
Nazirliyin regional bölmələri
Rəhbərlik
Daxili nəzarət şöbəsi
İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsi
Strateji planlaşdırma şöbəsi
Sənaye şöbəsi
Mənzil-kommunal siyasəti şöbəsi
Dövlət investisiyaları şöbəsi
Dövlətlərarası iqtisadi əməkdaşlıq şöbəsi
Ticarət siyasəti və ÜTT şöbəsi
Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsi
Sahibkarlığın inkişafı siyasəti şöbəsi
Regionların inkişafı və dövlət proqramları şöbəsi
İnsan resursları şöbəsi
Hüquq şöbəsi
Ümumi şöbə
Elektron idarəetmə şöbəsi
Ictimaiyyətlə əlaqələr şöbəsi
Maliyyə və təminat şöbəsi
Protokol xidməti sektoru
Korporativ idarəetmə sektoru
Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumlar
“İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC
“Bakı Biznes Mərkəzi” MMC
Təsərrüfat müəssisəsi
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu
Bakı Biznes Tədris Mərkəzi
“Sumqayıt Kimya Sənaye Parkı” MMC
Nazirliyin təsisçisi olduğu qurumlar
AZPROMO
“Azərlotoreya” ASC
Səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə olunmuş hüquqi şəxslər
“Azərbaycan İnvestisiya Şirkəti” ASC
“Təmiz Şəhər” ASC
Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi
Abşeron regional bölməsi
Gəncə-Qazax regional bölməsi
Şəki-Zaqatala regional bölməsi
Lənkəran regional bölməsi
Quba-Xaçmaz regional bölməsi
Aran regional bölməsi
Yuxarı Qarabağ regional bölməsi
Dağlıq Şirvan regional bölməsi
Kəlbəcər-Laçın regional bölməsi

# İQTİSADİYYAT VƏ SƏNAYE NAZİRLİYİ

- Ölkənin iqtisadi siyasətinin əsasları İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən hazırlanan ***qısa və orta müddətli inkişaf plan və proqramları*** və onlara əsaslanaraq Maliyyə Nazirliyi tərəfindən hazırlanan ***dövlət büdcələri***ndə öz əksini tapır.
- İqtisadiyyat və Sənaye Nazirliyinin iqtisadi siyasət baxımından əhəmiyyətli olan əsas fəaliyyət istiqamətlərindən biri də ölkə iqtisadiyyatında rəqabətin qorunmasıdır.

# QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

- 1998-cu il 30 dekabr tarixində ***Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi*** yaradılmışdır.
- ***Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK)*** öz fəaliyyət istiqamətlərinə uyğun olaraq qiymətli kağızlar bazarının tənzimlənməsi ilə bağlı normativ aktların qəbul edilməsi, qiymətli kağızların emissiyası və tədavülü, qiymətli kağızlar bazarı iştirakçılarının və investisiya fondlarının fəaliyyətləri, qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəlikləri bazarı, müvafiq fəaliyyət növlərinin lisenziyalaşdırılmasının həyata keçirilməsi, lotereyaların təşkili və keçirilməsi, qiymətli kağızlar bazarında investorların və qiymətli kağızlar bazarının iştirakçılarının hüquqlarının müdafiəsi, sağlam rəqabət mühitinin yaradılması üzrə dövlət tənzimlənməsini və nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

# İQTİSADİ SİYASƏTİN FORMALAŞMASINDA QURUMLARIN ƏMƏKDAŞLIĞI

- İqtisadi stabilliyini təmin etmiş, inflyasiya problemini həll etmiş, iqtisadi artımı davamlı həddə gəlmiş, xarici tarazlıq problemi olmayan bir ölkədə iqtisadi siyasətin bəzi bölmələrinin həyata keçirilməsi yetərlidir.
- Bu vəziyyətdə olan inkişaf etmiş ölkələrin əksəriyyətində yalnız pul siyasəti və ya faiz siyasəti iqtisadi stabilliyin qorunması üçün yetərli ola bilir.
- Bəzi hallarda, məsələn, iqtisadiyyatın canlandırılması tələb olunan hallarda vergi endirimləri kimi maliyyə siyasəti mexanizmləri də tətbiq edilə bilər.
- Bir sözlə qeyd olunan hallarda yalnız Mərkəzi Bankın, yaxud da yalnız Maliyyə Nazirliyinin hazırladığı siyasət mexanizmlərinin tətbiq edilməsi yetərli ola bilər.

# İQTİSADİ SİYASƏTİN FORMALAŞMASINDA QURUMLARIN ƏMƏKDAŞLIĞI

- İnkişaf etməkdə olan ölkələrdə isə iqtisadi siyasətin daha çox bütövlük daşıması zəruridir.
- Çünkü bu ölkələrdə problem yalnız mövcud tarazlığın davam etdirilməsi, yaxud da qorunması deyil, daha yaxşı bir tarazlığa keçidin zəmininin hazırlanmasıdır.
- Belə bir vəziyyətdə təbii olaraq, bu siyasətləri hazırlayacaq və tətbiq edəcək qurumların birgə çalışmasına ehtiyac ortaya çıxır.
- Bu çərçivədə baxıldıqda, iqtisadi siyasətin ümumi çərçivəsinin müəyyən edilməsində İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən hazırlanan ***orta müddətli inkişaf proqramı*** və maliyyə siyasətinin müəyyən edilməsində Maliyyə Nazirliyi tərəfindən hazırlanan ***büdcə*** əhəmiyyətli rola malikdir.

# YOXLAMA SUALLARI

1. Maliyyə Nazirliyinin əsas vəzifəsi nədir?
2. Xəzinədralığın əsas funksiyalarını şərh edin.
3. Dövlətin borclanmasını hansı qurum həyata keçirir? Bunu həyata keçirərkən hansı qurumlarla və hansı çərçivədə əməkdaşlıq edir?
4. Vergilər Nazirliyinin əsas vəzifəsini şərh edin.
5. Dövlət Gömrük Komitəsinin əsas vəzifəsini izah edin.
6. Mərkəzi Bankın əsas vəzifəsi nədir? Bu vəzifəsini hansı siyasətdən istifadə edərək yerinə yetirir?
7. İqtisadi siyasətin formalaşdırılmasında iştirak edən qurumlar hansılardır?
8. İqtisadi siyasətin formalaşdırılmasında qurumların əməkdaşlığı nə üçün əhəmiyyətlidir və necə təmin edilir?
9. Sizcə Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsinin ayrı-ayrı strukturlar kimi fəaliyyət göstərməsi doğru yanaşmadırmı? Müzakirə edin.
10. İqtisadiyyat və Sənaye Nazirliyinin vəzifəsi nədir?
11. Sizcə İqtisadiyyat və Sənaye Nazirliyi və Kənd Təsərrüfatı Nazirlikllərinin ayrı-ayrı strukturlar kimi fəaliyyət göstərməsi doğru yanaşmadırmı? Müzakirə edin.
12. Ölkə iqtisadiyyatında rəqabətin qorunması funksiyasını İqtisadiyyat və Sənaye Nazirliyinin bir strukturu tərəfindən həyata keçirilməsinə münasibətiniz necədir?
13. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin funksiyalarını açıqlayın.

# TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR


- Mahfi Eğilmez, Ercan Kumcu, (2014). “Ekonomi Politikası: Teori ve Türkiye Uygulaması”, İstanbul: Remzi Kitabevi, 19. Basım.
- Agnes Benassy-Quere və.b., (2010). “Economic Policy: Theory and Policy”. Oxford University Press.
- Qreqori Mənkyu (2007), “Ekonomiksin əsasları”, Bakı: CBS Polygraphic Production.
- Rasim Həsənov (2009), “İqtisadi siyasət: metodologiya və praktika”, Bakı: “İqtisad Universiteti” nəşriyyatı.